# Əgər bir kəs günah edər, sonra dəstəmaz alaraq namaz qılar, sonra Allahdan bağışlanma diləyərsə, Allah onu bağışlayar

Əlidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Mən elə bir adamam ki, Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) bir hədis eşitdiyim zaman uca Allah məni o hədislə istədiyi tərzdə faydalandırırdı. Əgər mənə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən kimsə hədis rəvayət etsəydi ona and içdirərdim, əgər and içsə, mən ona inanardım. Əbu Bəkr mənə hədis rəvayət etdi və dediklərində sadiq idi, dedi ki: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyini eşitdim: "Əgər bir kəs günah edər, sonra dəstəmaz alaraq namaz qılar, sonra Allahdan bağışlanma diləyərsə, Allah onu bağışlayar" Ardınca bu ayəni oxudu: [O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər.] [Ali İmran:135]

[Səhih] [Əbu Davud,Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, İbnu-Məcə və Əhməd rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, əgər bəndə günah edərsə, sonra gözəl dəstəmaz alarsa, ardınca ayağa qalxıb bu günahdan tövbə niyyəti ilə iki rükət namaz qılarsa və nəhayət Allahdan bağışlanma diləsə, Allah da onu bağışlayar. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın bu kəlamını oxudu: [O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər,- günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar bilə-bilə günah əməllərində israr etməzlər.] [Ali imran:135]



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee